**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 124 nömrəli qərarı ilə təsdiq edilmiş "Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası"nın tələblərinə uyğun olaraq növbəti il üçün əcnəbi (və ya vətəndaşlığı olmayan şəxs) işçi qüvvəsinə tələbat haqqında proqnoz-məlumatın Məşğulluq Təsnifatı üzrə peşələr göstərilməklə doldurulması ardıcıllığına dair**

# İ S T İ Q A M Ə T L Ə N D İ R İ C İ

Növbəti il üçün əcnəbi (və ya vətəndaşlığı olmayan şəxs) işçi qüvvəsinə tələbat haqqında proqnoz-məlumat forması (əlavə olunur) Məşğulluq Təsnifatı üzrə peşələr göstərilməklə aşağıdakı ardıcıllığla doldurulur: Məşğulluq Təsnifatı üzrə peşələrin kodunu müəyyən etmək üçün Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin internet səhifəsindəki (www.migration.gov.az)




**"İŞ İCAZƏSİ – QAYNAR XƏTT"** bölməsinə daxil olaraq,



**“www.azstat.org/tesnifat”** internet ünvanına keçid edilir.




Daha sonra oradakı təsnifatlardan **“MƏŞĞULLUQ”** altsistemini seçirsiniz.




Axtardığınız vəzifənin kodunu müəyyən etmək üçün



klaviaturada **“Ctrl”** və **“F”** düyməlÉ™rini sıxaraq açılmış axtarış pəncərəsində peşənin adını yazın. Sonra klaviaturada **”Enter”** düyməsini sıxmaqla axtardığınız peşənin təsnifat kodunu tapa biləcəksiniz.







Peşələrin Məşğulluq Təsnifat kodu müəyyən edildikdən sonra həmin peşələrin təsnifat kodları və adları proqnoz-məlumat formasının **“əcnəbi işçi qüvvəsinin cəlb olunması nəzərdə tutulan müvafiq peşələr”** qrafasında yerləşdirilir.

“Əmək miqrasiyası kvotası” bölməsinə yerləşdirilmiş “əcnəbi işçi qüvvəsinə tələbat haqqında proqnoz-məlumat”ı doldurduqdan sonra həmin sənədin skan olunmuş surəti elektron poçta (shafaq.t@migration.gov.az) göndərilir.

**Qeyd**

Yalnız Məşğulluq Təsnifatında göstərilən peşələrin təsnifat kodları və adları əcnəbi işçi qüvvəsinə tələbat haqqında proqnoz-məlumatda qeyd olunmalıdır.

Proqnoz-məlumatda qeyd olunan peşələrin təsnifat kodları və adları bir-birinə uyğun seçilməlidir.